# ZENİTDƏKİ İSTEDAD – TAHİR SALAHOV...



**...Aləmlər içrə bir dünya da var: Tahir Salahov dünyası... Təməli 7–8 yaşlı istedadın öz uşaq düşüncələrini, rəngbərəng yuxularını, müqəddəs vətənə olan məhəbbətini, əsrarəngiz təbiət təəssüratlarını kağıza köçürməsiylə qoyuldu. İllər ötdü... gənc rəssam əlinə fırça alıb böyük molbert önünə keçdi. Həyata baxışları dəyişdi, peşə bilikləri artdı, təxəyyülü genişləndi, fantaziyaları zənginləşdi və beləcə, bütün dünyanın aşiqliyini gizlətməyərək baş əydiyi sənət məbədi ucaltdı, insanları da bu məkanın zəvvarına çevirdi...**

Bu günlərdə Moskva sənətsevərlərinə və qonaqlarına onun sənət dünyasıyla üz-üzə qalmaq səadəti bir daha nəsib oldu.

Yanvarın 22-də Moskvadakı Dövlət Tretyakov Qalereyasının 160 illiyi məhz dünya şöhrətli fırça ustası, Azərbaycanın, Rusiyanın və SSRİ-nin xalq rəssamı, dövlət mükafatları laureatı, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti Tahir Salahovun əsərlərindən ibarət "Günəş zenitdə" adlı fərdi sərgisi ilə qeyd olundu...

"Tretyakovka"da ilk dəfədir ki Azərbaycan rəssamının fərdi sərgisi açılır və bu ekspozisiya bir daha görkəmli fırça ustası Tahir Salahov yaradıcılığının akademik səviyyəsindən xəbər verir. Sərgidə təsviri sənətdə "sərt üslub"un aparıcı nümayəndəsi olan rəssamın Dövlət Tretyakov Qalereyası, Dövlət Rus Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası, Bakıdakı ev-muzeyindən və şəxsi kolleksiyalardan əsərləri nümayiş etdirilir.

Xalq rəssamı Tahir Salahovun: "Mən əsərlərimdə reallığı əks etdirmişəm, çünki reallıq əsrlərlə yaşayır. Qəhrəmanlarımın hər birini şəxsən tanıyıram. Əminəm ki, bu reallıq və xatirə hər zaman aktuallığını qoruyacaq", – deməsi hər zaman həyati gerçəkliyin tam mərkəzində olmasından qaynaqlanır.

Martın 20-dək davam edəcək "Günəş zenitdə" sərgisi əslində Tahir Salahov irsinin təqdimatının yalnız bir mərhələsidir. Ötən il məşhur həmyerlimizin əsərləri Portuqaliyanın Lissabon şəhərində Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə keçirilən, 30-dan çox ölkənin rəssamlarının qatıldığı "Ənənə və müasirlik" Beynəlxalq İncəsənət Festivalında Azərbaycan ekspozisiyası adı altında sərgilənib.

**“2014-cü ildə Fransa İncəsənət Akademiyası, Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyi, eləcə də ölkəmizin Fransadakı səfirliyinin təşkilatçılığı ilə Parisdə "Əsrlərin qovuşuğunda" adlı fərdi sərgisi açılıb. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva sərginin açılış mərasimində iştirak edib. Fransa İncəsənət Akademiyasının daimi katibi Arno de Trive dünyada yetərincə tanınan Tahir Salahovun yaradıcılığına Fransada böyük marağın olduğunu və bu sərgidə nümayiş etdirilən əsərlərin tamaşaçılara yüksək zövq aşılayacağını söyləyib.**







Dahi rəssamın əsərləri ziyarətçilərdə böyük maraq doğurdu



## AQAVA BİTKİSİ SOLMASIN...

*Sərgi salonunun bir guşəsində əyləşmişdi... simasından nur yağırdı. Yaxınlaşan hər kəslə məmnuniyyətlə şəkil çəkdirir, avtoqraf verirdi. Bu mənzərəni kənardan müşahidə edərkən düşünürdüm ki, hələ uşaqlıqdan yaradıcılığının vurğunu olduğum, əlçatmaz zirvə sandığım bu şəxsiyyət, sən demə, nə qədər sadə və səmimi imiş... Yaqin, bütün dahilər kimi o da fövqəladəliyinin fərqində deyil.*



...Ürəklənib mən də yaxınlaşdım, hətta kiçik bir müsahibə də aldım. Uzun illər Azərbaycandan kənarda yaşasa da, qəlbinin daim Vətənin nəbzi ilə bir vurduğunun şahidi oldum. O zaman Azərbaycanda növbəti prezident seçkiləri ərəfəsi idi. Özünəməxsus təmkin və mehribanlıqla cənab İlham Əliyevi yaxından tanıdığını, Bakı və regionlar üçün nə qədər böyük işlər görüldüyünü, Azərbaycanın rifahına yönəlmiş siyasətin davam etdiriləcəyini söylədi. Bu, xalqımızın Tahir Salahov kimi ağsaqqalın sözünə daha çox ehtiyacı olduğu bir dövr idi.

...Tahir Salahov hələ sağlığında "klassik" zirvəsinə yüksəlmiş nadir sənət adamlarındandır. Rəssamlıq tarixinə "sərt üslub"un davamçısı kimi daxil olsa da, müasir cərəyanlara laqeyd qalmayıb, zamanın nəbzini tutmağı daim bacarıb. Yaradıcılığının əsas mövzusu əmək və zəhmət adamlarıdır. Özünün də dediyi kimi, istər neftçi olsun, istərsə də bəstəkar və ya məmur, hər bir qəhrəmanını şəxsən tanıyıb. Tamaşaçısına əməyin əsl yaradıcılıq, yaradıcılığın isə gərgin əmək olduğunu aşılayıb. Əsərləri aktuallığını heç vaxt itirmir, illər ötsə də, hər gələn nəsil üçün maraqlı və yenidir. Bəlkə də deyilənlər bir çox tanınmış sənətkarların yaradıcılığına xas xüsusiyyətdir. Ancaq Tahir müəllimin əsərləri həm də gələcəyin qaranquşlarıdır. Bax bu artıq dahiliyə işarədir. Hər dəfə onun rəngkarlıq, qrafika, səhnə tərtibatı janrlarında işlərini nəzərdən keçirərkən rəssamın sanki fantast yazıçı kimi əsri, ili, günü qabaqladığını, hələ deyilməmişləri söylədiyini düşünürsən.

"Tahir Salahovun yaradıcılığı sırf milli çərçivəni çoxdan aşmışdır. O, Azərbaycanın zəngin mədəniyyətini bütün dünyaya təqdim etməklə ümumbəşəri mədəniyyətin yüksək nümunələri səviyyəsinə qaldırmağa nail olmuşdur".

Elçin Əfəndiyev,
Azərbaycan Respublikası Baş nazirinin müavini

"Tahir Salahov öz sənəti ilə bizi həmişə sevindirir. Onun emalatxanasına, çəkdiyi rəsmlərə, palitrasına, bir anda işıqsaçan gözlərinə və ətrafındakı insanlara baxanda həmişə heyranlıq hissləri keçirirsən, düşünürsən ki, bütün bunlar necə də gözəldir".

Zurab Sereteli,
Rusiya Rəssamlıq Akademiyasının prezidenti

**Elə bu günlər şaxtalı-qarlı qış axşamı Moskvanın əfsanəvi Tretyakov qalereyasına da Tahir Salahov fəlsəfəsinə bir də nəzər salmaq, ruhumuza dinclik verməyən suallarımıza cavab axtarmaq üçün toplaşmışdıq. Tretyakov qalereyası rəssamın 80-dən çox əsərini bir araya toplamışdı. Qalereyanın direktoru Zelfira Trequlova sərgini açıq elan edərək Tahir Salahovun XX əsrin ikinci yarısının böyük rəssamlarından biri olduğunu söylədi: "O, dövrünü heyranedici dəqiqliklə göstərə bilib və özünün də dediyi kimi, tamaşaçısı qarşısında həmişə dürüst olub". Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu isə dahi rəssamı Azərbaycan və Rusiya xalqlarının fəxri olan böyük ustad adlandırdı: "Tahir Salahov Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən bir şəxsiyyətdir və onun yaratdığı bütün əsərlər tarixə çevrilir".**

Ekspozisiyada doğma Azərbaycanı, Neft Daşlarını, Naxçıvan dağlarını, Abşeronun isti qumlu sahillərini, hər daşında şanlı tarix yazılmış Qız qalasını əks etdirən əsərlərin xüsusi yeri var. Tahir müəllimin hər rəsmində qırmızı çalar gözə çarpır. Qırmızı–alov, qığılcım, məhəbbət və deməli, ümid, başlanğıc, davam rəmzidir.


Dmitri Şostakoviç


Aydan


Neftçilər




Fikrət Əmirovun portreti


Abşeron qadınları



Ustad "Neftçi" əsərinin qəhrəmanını belə xatırlayır: "Mən platformada idim. Artıq eskizlərim hazır idi. Bu vaxt o, qırmızı müştüyünü çıxardı. Belə səhnəni bilərəkdən qurmaq mümkün deyildi. İndi mən təkcə onun küləkdən cadar-cadar olmuş üzünə baxmırdım, həm də qırmızı müştüyünün canlandırdığı səhnəyə heyran qalmışdım".

Tahir müəllim əvəzsiz portret ustasıdır. Ondan ötrü kainatın şah əsəri olan insan daim ön plandadır. Ustadın "Qara Qarayev", "Mstislav Rostropoviç", "Alagöz", "Dunayevski", "Şostakoviç", "Aydan" kimi portret əsərləri dünyaca məşhurdur.

Məşhur sənətkarın "Aydan" əsəri sovet dövrü təsviri sənətinin ən yaxşı nümunələrindən hesab olunur. Əsərin bir variantı (rəssam onu vaxtilə Tokioda açdığı sərgi münasibətilə çəkib) ötən ilin dekabrında Londonun "Sotheby's" auksionunda hərraca qoyulub.

**"Günəş zenitdə" sərgisinin açılışına Moskvanın tanınmış sənət adamları, ictimai xadimlər toplaşmışdı. Nisbətən yaşlı nəsil nostalji hisslər yaşamağa, xatirələrə dalmağa, gənclər isə bu günün suallarına cavab axtarmağa gəlmişdilər. Ancaq hər iki nəsli Tahir Salahov yaradıcılığına maraq, sevgi, heyranlıq bir araya gətirmişdi. Çünki Günəş zirvədədir və hər kəs bu zirvənin cazibə gücünü duymaq təşnəsindəydi.**

...Bir neçə əsər sövq-təbii diqqət çəkir. Rəssam bu silsiləni anası Sona xanıma həsr edib. Sona xanım 1937-ci ildə "xalq düşməni" elan olunub güllələnmiş Laçın rayonunun birinci katibi, kommunist Teymur Salahovun xanımı idi. Həmin hadisədən sonra atasız qalmış beş övladını təkbaşına böyütmüşdü. Bir rəsmdə o, həyat yoldaşının, digərində övladlarının yolunu gözləyir, üçüncüdə – sevimli aqava bitkisinə qulluq edir, burada isə təkcə aqava bitkisidir, kürsü isə boşdur...

...Ekspozisiyanı dolaşdıqca düşünürəm: nə yaxşı ki, Tahir Salahov var, çox şükür, onun böyük yaradıcılığı diqqətsiz qalmayıb, nə xoş ki, belə dahi azərbaycanlılar öz vətənlərində də sevilir və qiymətləndirilir. Qoy Tahir Salahovun aqava bitkisi hələ uzun illər tənha qalmasın! Nə qədər ki qayğı nəvaziş göstərmək imkanımız var, qoymayaq aqavanı solmağa...

Fəridə Abdullayeva